"TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ İLƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA PREFERENSİAL TİCARƏT SAZİŞİ"NƏ DƏYİŞİKLİK HAQQINDA PROTOKOL

Türkiyə Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti (bundan sonra "Tərəflər" adlandırılacaq),

25 fevral 2020-ci il tarixində Bakı şəhərində imzalanmış "Türkiyə Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"ni (bundan sonra "Saziş" adlandırılacaq) və xüsusilə Sazişin 22-ci və 24-cü maddələrini nəzərə alaraq,

AŞAĞIDAKILAR BARƏDƏ RAZILIĞA GƏLDİLƏR:

MADDƏ 1

1. Tərəflər Sazişin əlavələrində qeyd olunmuş mallarla ticarət üçün güzəştlərə əlavə olaraq, bu Protokola Əlavə I-A və Əlavə I-B-də qeyd olunmuş malların ticarətində bir-birinə güzəştlər verəcəklər.
2. Hər bir mal üçün azaldılmanın tətbiq ediləcəyi baza tarif dərəcəsi və ya əlavə gömrük rüsumu bu Protokola Əlavə I-A və Əlavə I-B-də göstərilmişdir. Tarif azaldılmaları bu Protokol qüvvəyə mindiyi andan tətbiq edilir.
3. Sazişin müddəaları bu Protokola və onun Əlavələrinə tətbiq edilir.

MADDƏ 2

Sazişin 3-cü maddəsinin 9-cu paraqrafı aşağıdakılarla redaksiyada verilsin:
"9. "Keçid müddəti" dedikdə, bu Saziş çərçivəsində mallara verilən güzəştlərin qüvvəyə mindiyi tarixdən sonrakı 10 illik müddət başa düşülür.".

MADDƏ 3

Bu Protokol, Tərəflərin bu Protokolun qüvvəyə minməsi üçün öz milli qanunvericiliyində nəzərdə tutulmuş bütün zəruri tələblərin yerinə yetirildiyi barədə bir-birinə diplomatik kanallar vasitəsilə məlumat verdiyi sonuncu yazılı bildirişin alınmasından sonrakı ikinci ayın ilk günü qüvvəyə minir.

Samsun şəhərində 2023-cü il 29 aprel tarixində Türk, Azərbaycan və İngilis dillərində olmaqla iki nüsxədə hazırlanmışdır.

Bütün mətnlər bərabər autentikdir. Hər hansı fərqlilik olduğu təqdirdə İngilis dilində olan mətn əsas götürülür.

Türkiyə Respublikası
Hökuməti adından

Mehmet MUŞ
Ticarət naziri

Azərbaycan Respublikası
Hökuməti adından

Mikayıl CABBAROV
İqtisadiyyat naziri

Əlavə I-A

Aşağıdakı cədvəldə sadalanan Türkiyə Respublikasının Azərbaycan Respublikasından idxal etdiyi mallar orada göstərilən güzəştlərə tabedir.

No	HS 2022	Adı	Baza tarif dərəcəsi (BTD)	Əlavə gömrük rüsumu (ƏGR)	Tarifin azaldılma dərəcəsi
1	0813409500	tut, heyva və digərləri	15,4	-	BTD-nin 50% azaldılması
2	2204219300	ağ şərab (tutumu 2 litr və ya daha az həcmli qablarda; Aİ istehsalı olmayan; mənşəyinə görə qorunan adı ilə (Protected Designation of Origin, PDO) və ya qorunan coğrafi göstəricisi ilə (Protected Geographical Indication, PGI))	70	-	15.000 hl/il kvota daxilində BTD-nin 100% azaldılması
3	2204219400	ağ şərabdan başqa digər şərablar (tutumu 2 litr və ya daha az həcmli qablarda; Aİ istehsalı olmayan; mənşəyinə görə qorunan adı ilə (Protected Designation of Origin, PDO) və ya qorunan coğrafi göstəricisi ilə (Protected Geographical Indication, PGI))	70	-	
4	2204219500	ağ şərab (Aİ istehsalı olmayan; digər sortluq (bir üzüm növündən); tutumu 2 litr və ya daha az həcmli qablarda)	70	-	
5	2204219700	digər ağ şərab (Aİ istehsalı olmayan; tutumu 2 litr və ya daha az həcmli qablarda)	70	-	
6	2204219800	ağ şərabdan başqa digər şərablar (tutumu 2 litr və ya daha az həcmli qablarda; Aİ istehsalı olmayan)	70	-	
7	2206005900	qıcqırdılmış içkilər, onların qarışıqları, qıcqırdılmış içkilərlə alkoqolsuz içkilərin qarışıqları (köpüklənməyən, qablarda tutumu 2 litr və ya az)	70	-	

8	3917211000	sərt borular, şlanqlar; etilen polimerlərindən, tikişsiz (başqa emala məruz qalmamaış)	6,5	10	ƏGR-in 100% azaldılması
9	6305321900	polietilen və polipropilen zolaq və ya lentlərdən böyük həcmli elastik konteynerlər (maşınla və ya əllə toxunmuş istisna)	7,2	20	ƏGR-in 100% azaldılması
10	6305339000	qablaşdırma üçün polietilen və polipropilen zolaqlardan ibarət kisə və paketlər və s. (maşınla və ya əllə toxunmuş istisna)	7,2	20	ƏGR-in 100% azaldılması
11	7207111400	dəmirdən və ya aşqarlanmamış poladdan yarımfabrikatlar (qalınlığı 130 mm-dən çox olmayan; yayılmış və ya fasiləsiz tökmə ilə alınmış, tərkibində 0,25 kütlə %-dən az karbon olanlar)	22,5	-	BTD-nin 50% azaldılması
12	7207201500	dəmirdən və ya aşqarlanmamış poladdan yayılmış və ya fasiləsiz tökmə ilə alınmış digər yarımfabrikatlar (0,25 kütlə % və ya daha çox, lakin 0,6 kütlə %-dən az karbon olan, eni ikiqat qalınlığından az olan, düzbucaqlı (kvadrat daxil olmaqla)	22,5	-	BTD-nin 50% azaldılması
13	7213911000	dəmirdən və ya aşqarlanmamış poladdan çubuqlar (isti yayılmış, rulonlarda, diametri 14 mm-dən az; betonun armaturlaşdırılması üçün istifadə olunan)	30	-	BTD-nin 50% azaldılması
14	7214991000	dəmirdən və ya aşqarlanmamış poladdan çubuqlar (tərkibində 0,25 kütlə %-dən az karbon olanlar; dörd tərəfi isti yayılmış, betonun armaturlaşdırılması üçün istifadə olunanlar)	30	-	BTD-nin 50% azaldılması
15	7606119100	aşqarlanmamış alüminiumdan plitələr, vərəqlər, zolaqlar və ya lentlər (qalınlığı 3 mm-dən az, düzbucaqlı və kvadrat şəklində)	7,5	7	ƏGR-in 100% azaldılması

Əlavə I-B

Aşağıdakı cədvəldə sadalanan Azərbaycan Respublikasının Türkiyə Respublikasından idxal etdiyi mallar orada göstərilən güzəştlərə tabedir.

No	HS 2022	Adı	Baza tarif dərəcəsi (BTD)	Tarifin azaldılma dərəcəsi
1	3302 10 400 0	digərləri	15	BTD-nin 100% azaldılması
2	3923 30 101 0	həcmi 2 l-dən çox olmayan məmulatların hazırlanması üçün preformalar	15	BTD-nin 33% azaldılması
3	4410 11 100 0	emal edilməmiş və ya cilalanmadan başqa sonrakı emala məruz qalmamış	5	BTD-nin 100% azaldılması
4	4418 29 000 1	iynəyarpaqlı növlərin oduncağından qapılar və onların çərçivələri və kandarları	15	BTD-nin 66% azaldılması
5	4803 00 310 0	25 q-dan çox olmayan	15	BTD-nin 100% azaldılması
6	4819 20 000 0	büzməli olmayan kağızdan və ya büzməli olmayan kartondan hazırlanmış qatlanan kiçik qutular, yeşiklər və qutular	15	BTD-nin 100% azaldılması
7	7408 11 000 0	en kəsiyinin maksimum ölçüsü 6 mm-dən çox olan	5	BTD-nin 100% azaldılması
8	7612 90 800 0	digərləri	15	BTD-nin 33% azaldılması
9	8309 90 900 0	digərləri	15	BTD-nin 100% azaldılması
10	8413 91 000 9	digərləri	5	BTD-nin 100% azaldılması
11	8422 40 000 0	digər qablaşdırma və bükmə (qablaşdırma materiallarını termogeydirmə üsulu ilə bürüyən avadanlıq daxil olmaqla) üçün avadanlıq	5	BTD-nin 100% azaldılması

12	8450 11 110 0	öndən doldurulan maşınlar	15	BTD-nin 33% azaldılması
13	8450 11 900 0	həcmi 6 kq quru paltardan çox, lakin 10 kq-dan çox olmayan	15	BTD-nin 33% azaldılması
14	8528 72 200 0	tərkibində videoyazan və ya videocanlandıran olan aparatura	15	BTD-nin 33% azaldılması
15	8708 99 970 0	digərləri	5	BTD-nin 50% azaldılması